# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

***Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!***

## BİLALOV SƏRXAN İSMƏT OĞLU



Şəhid gizir Sərxan İsmət oğlu Bilalov 31 may 1989-cu ildə Qax şəhərində anadan olmuşdur. 1995-ci ildə Qax şəhər şəhid Etibar Babayev adına 4 saylı tam orta məktəbinin birinci sinfinə qədəm qoymuşdur. 2006-cı ildə həmin məktəbi bitirmişdir. 2 iyul 2007-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qax rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. 31 dekabr 2008-ci ildə hərbi xidmətini başa vurmuş və bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə 2010-cu ilin sentyabrında 6 aylıq Gizirlik kursuna daxil olmuşdur. Kursu müvəffəqiyyətlə başa vuran Sərxan Bilalov 2011-ci ilin mart ayında Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə poliqon rəisi vəzifəsində xidmətə başlamışdır. 2016-cı ildə Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə maşın böyüyü vəzifəsində çalışmışdır. Hərbi xidmət müddətində "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun giziri olan Sərxan Bilalov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vətən müharibəsində böyük Zəfərimizin qazanılmasında pay sahibi olmuş, böyük qəhrəmanlıq və şücaət göstərmişdir. Vətən müharibəsi bitdikdən sonra Sərxan Bilalov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Suqovuşanın azad olunmasına görə" medalı və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Qəhrəmanımız müharibədən sonra da hərbi xidmətini davam etdirmişdir.

Sərxan Bilalov 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror tədbirlərində iştirak etmişdir. Tərtər istiqamətində gedən döyüşlərdə böyük rəşadət və igidlik göstərmişdir. Gizir Sərxan Bilalov Tərtər istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi Qax Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Şəhidimiz ailəli idi, İsmət və Nicat adlı oğulları yadigar qaldı.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Sərxan Bilalov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## BEYDİYEV RÖYAL NƏSİB OĞLU



Şəhid əsgər Röyal Nəsib oğlu Beydiyev 18 fevral 2005-ci ildə Oğuz rayonunun Qarabulaq kəndində anadan olmuşdur. 2011-ci ildə Oğuz rayon Əjdər Mahmudov adına Qarabulaq kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuşdur. 2022-ci ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir. 2023-cü ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Oğuz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Röyal Beydiyev 19 sentyabr 2023-cü ildə Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xankəndinin azadlığı uğrunda gedən döyüşlərdə Xankəndinin azad olunması ilə bərabər Qarabağın tamamilə azad olunmasında və Azərbaycanımızın ərazi bütövlüyünün tam təmin olunmasında böyük qəhrəmanlıq və igidlik göstərmişdir. Əsgər Röyal Beydiyev 20 sentyabr 2023-cü ildə Xankəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 21 sentyabr 2023-cü ildə doğulduğu Oğuz rayonunun Qarabulaq kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Röyal Beydiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## CƏFƏROV ELŞAD MALİK OĞLU



Şəhid əsgər Elşad Malik oğlu Cəfərov 27 noyabr 1999-cu ildə Sabirabad rayonunun Qalağayın kəndində anadan olmuşdur. Əslən Füzuli rayonunun Dövlətyarlı kəndindəndir. Elşad Cəfərov orta təhsilini Füzuli rayonunun İkinci Zobucuq qəsəbəsində yerləşən Füzuli rayon 27 nömrəli tam orta məktəbində başa vurduqdan sonra 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlamış, 2019-cu ildə hərbi xidmətini başa vurmuşdur. Elşad Cəfərov 2020-ci ildən hərbi xidmətini Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq davam etdirirdi. Azərbaycan Ordusunun əsgəri olan Elşad Cəfərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, fərqlənmişdir. Şanlı Zəfərimizin qazanılmasında böyük pay sahibi olmuş, düşmənləri darmadağın edərək böyük qəhrəmanlıq nümayiş etdirmişdir. Vətən müharibəsindən sonra Elşad Cəfərov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir. Müharibə bitdikdən sonra Elşad Cəfərov hərbi xidmətinə davam etmişdir. 2022-ci ildə komando təlimlərinə qoşulan və təlimlərdən müvəffəqiyyətlə keçən Elşad Cəfərov Komando Briqadasında kəşfiyyatçı operator olaraq xidmət edirdi. Elşad Cəfərov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda silahlanan erməni separatçılarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocavənd istiqamətində gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş, düşmənin kabusuna çevrilmişdir. Əsgər Elşad Cəfərov 20 sentyabr 2023-cü ildə Xocavənd istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin əmisi Adil Cəfərov Birinci Qarabağ müharibəsində, əmisinin oğlu Əli Cəfərli isə Vətən müharibəsində qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızınnəşi Füzuli rayonunun Əhmədbəyli kəndində torpağa tapşırılmışdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Elşad Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## CANBAXIŞOV XƏYAL XEYRULLA OĞLU



Şəhid əsgər Xəyal Xeyrulla oğlu Canbaxışov 9 yanvar 2003-cü ildə Mingəçevir şəhərində anadan olmuşdur. Uşaqlıqdan ədəb-ərkanı və tərbiyəsi ilə birgə həm də bacarığı və gücü ilə də seçilən Xəyal uğurlu idmançı və məğlubedilməz cüdoçu idi. Cüdo idman növü üzrə bir çox dərəcələri, nailiyyətləri və medalları var idi.

Xəyal orta təhsilini Mingəçevir şəhər 11 saylı tam orta məktəbində başa vurduqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Mingəçevir şəhər şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətini başa vuran Xəyal bir müddət mülki fəaliyyət göstərmiş, sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə bitirən Xəyal 2023-cü ilin mart ayından Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq yenidən ordu sıralarına qayıtmışdır. O, xidmətini Komando Briqadasında davam etdirirdi.

Xəyal Canbaxışov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda silahlanan erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror tədbirlərində iştirak etmişdir. Peşəkar dron idarəçisi olan Xəyal idarə etdiyi dronla Ağdam istiqamətində gedən döyüşlərdə düşmən səngərlərini bir-bir məhv edir, düşmənlərin üzərinə od ələyirdi. Əsgər Xəyal Canbaxışov 19 sentyabr 2023-cü ildə Ağdam rayonunun Papravənd kəndində döyüş tapşırığının yerinə yetirilməsi və dronla düşmən səngərlərinin məhv edilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 20 sentyabr 2023-cü ildə Mingəçevir Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Xəyal Canbaxışov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

**SEVİNDİK NƏSİBOĞLU**
*11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü*
*(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)*